*"...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".*

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**




# Qədimlik, tarixilik rəmzi

**Azərbaycanın mədəniyyət beşiyi, Qarabağın baş tacı olan Şuşa qədimlik, məğrurluq simvoludur. Milli memarlıq üslubu ilə seçilən, orta əsr şəhərsalma sənətinin qiymətli abidəsi adlandırılan, üç əsrə yaxın yaşı olan bu qədim şəhər tarixi boyu zəngin inkişaf yolu keçmiş, yetirdiyi görkəmli şəxsiyyətlərlə xalqımızın ədəbi, mədəni, ictimai-siyasi mühitinin formalaşmasında, zənginləşməsində əvəzsiz rol oynamışdır. Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Əhməd bəy Ağaoğlu kimi şəxsiyyətlər Şuşada yetişmiş, yaradıcılıqları ilə Azərbaycanın mədəniyyət salnaməsinə şanlı səhifələr yazmış, əvəzolunmaz ədəbiyyat və incəsənət nümunələri yaratmışlar. Havasında, suyunda musiqi duyulan, şair, musiqiçi, memar, rəssam və ədiblər məskəni olan qədim Şuşa Qafqazın sənət məbədi adlanır.**

Milli-mənəvi dəyərlərimizi, xalqımızın çoxəsrlik mədəniyyətini və musiqi ənənələrini özündə yaşadan, Azərbaycanın unikal mədəniyyət mərkəzi, milli memarlığımızın qiymətli abidəsi, Qarabağ xanlığının mərkəzi sayılan Şuşanın xalqımızın həyatında özünəməxsus yeri olmuşdur. Azərbaycan muğamının beşiyi hesab olunan Şuşa təkcə ölkəmizdə deyil, bütün dünyada qədim mədəniyyət mərkəzlərindən biri kimi tanınır.

44 günlük Vətən müharibəsində xalqımız zəngin dövlətçilik və hərb tariximizdə yeni səhifə açdı. Daha bir şanlı, qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi. Əsrlər boyu zamanın sərt sınaqlarından alnıaçıq çıxmış Azərbaycan ərazi bütövlüyü uğrunda Vətən savaşında düşmənə yenilmədi, torpaqlarını qarış-qarış, kənd-kənd işğaldan azad etdi. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 30 ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimiz yenidən bərpa olunur. İşğaldan azad edilmiş bölgələrdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallığın təmin edilməsi, bu ərazilərdə həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirməklə yanaşı, Azərbaycanın yeni inkişaf prosesində mühüm mərhələnin başlanğıcıdır.

2020-ci il noyabrın 8-də Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun düşməndən geri aldığı Azərbaycanın muğam beşiyi, milli musiqimizin, poeziyamızın qədim abidəsi Şuşada ermənilərin törətdikləri vandalizm əməllərinin nəticələrini qısa müddət ərzində aradan qaldırmaq və Dağlıq Qarabağ və ətraf rayonları gülüstana və turistlərin ən çox sevdiyi məkanlardan birinə çevirmək məqsədilə bərpa və yenidənqurma işləri sürətlə davam edir. Bu yerlər tarixiliklə müasirliyin vəhdətində tikilir, bərpa edilir. Azərbaycanın dilbər guşəsi olan Şuşa bütün dünyanı heyrətə gətirəcək, aləmi heyran qoyacaq dərəcədə yenidən yaradılır. Şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır. Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərinə ilk səfəri zamanı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun təməlini qoyaraq demişdir: "Böyük qayıdış başlayır, bütün işlərə start verildi.

Azərbaycan dövləti Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndləri, bütün tarixi abidələri bərpa edəcək. Şuşanın bərpası planlı şəkildə aparılacaq, Pənahəli xanın şəhərinin tarixi ruhu qorunacaq".

Şuşa şəhərinin baş planı Böyük Britaniyanın "Chapman Taylor" şirkəti tərəfindən hazırlanmış və şəhərin baş planında onun tarixi əzəmətinin qorunması əsas götürülmüşdür. Mədəniyyət paytaxtında həyata keçiriləcək bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulacaq və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da planlaşdırılıb. Dayanıqlı və komfortlu şəkildə qurulacaq Şuşanın Baş planında ilk olaraq şəhərdə küçə-yol infrastrukturunun yaradılması, şəhərdəki 200-ə qədər tarixi abidənin bərpa prosesinə cəlb olunması nəzərdə tutulur. Şəhərin mərkəzində 4-5 mərtəbəli yaşayış və ictimai-işgüzar binalar, Prezident İlham Əliyev tərəfindən təməli qoyulan yeni məscid kompleksi tikiləcək. Təqdim olunan Baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb. Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Beləliklə, yaşayış massivində 25 binanın olacağı planlaşdırılır. Avqustun 29-da təməli qoyulan 1-ci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar da Şuşaya xas memarlıq üslubu ilə tikiləcək. Şəhərin Baş planının hazırlanması, Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, tarixi, dini və memarlıq abidələrinin bərpası qədim Şuşada həyata keçirilən bərpa-quruculuq işlərinin tərkib hissəsidir. Bu gün Şuşa öz simasını günbəgün dəyişən və Azərbaycanın sürətlə inkişaf edən, yenidən qurulan bir şəhərinə çevrilir.

2021-ci ildə dövlət başçımız Şuşa şəhərini "Azərbaycanın mədəniyyət paytaxtı" elan etdi. Bu sərəncamla 2021-ci il mayın 12-si və 13-də Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" festivalı düzənləndi. "Xarıbülbül" musiqi festivalı Prezident İlham Əliyevin çıxışı ilə başladı: "Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir… 300-dən çox şəhər və kənd döyüş meydanında işğalçılardan azad edildi və Şuşanın - alınmaz qalanın alınması ayrıca bir qəhrəmanlıq dastanıdır".

Dövrünün böyük şairi, mütəfəkkiri və dövlət xadimi, yaradıcılığında özünəməxsus realist ədəbi-estetik mövqeyi ilə seçilən Molla Pənah Vaqif irsinə işıq salan Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olundu. Müzəffər Azərbaycan Ordusunun şanlı Zəfərindən sonra Qarabağ tarixi, Qarabağda yaranan şeir, musiqi sənəti yenidən yaşamaq hüququ aldı. Molla Pənah Vaqifin məqbərəsinin yenidən açıldığı, Vaqif Poeziya Günlərinin yenidən başladığı gün isə ərazi bütövlüyünə qovuşmuş müstəqil Azərbaycanın söz, şeir bayramına çevrildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən il Şuşa şəhərini Azərbaycanın mədəniyyət mərkəzi elan etməsi tarixən xalqımızın mədəniyyətinin, incəsənətinin formalaşmasında, inkişaf etməsində Şuşa qədər ikinci şəhərin olmadığını bir daha göstərdi: "Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır. Şuşanın bərpası ilə əlaqədar işlərə artıq start verildi. Mənim göstərişimlə böyük heyət oraya ezam edildi. Deməli, yaşayış fondunun, tarixi abidələrin təftişi aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır və biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Ancaq yenə də vaxt itirmədən, ancaq, eyni zamanda, tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir".

Şuşa xalqımızın ictimai-siyasi həyatında hər zaman mühüm rol oynamışdır. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq, bənzərsiz tarixini, görkəmini, özünəməxsus mühitini bütün dövrlərdə qoruyub saxlayan qədim Şuşa öz missiyasını bu gün də davam etdirir. 2021-ci il iyunun 15- də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşada müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalamışlar. Bu il fevralın 12-də Prezident İlham Əliyev "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu imzalamışdır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin təsdiq edilməsi barədə imzaladığı qərar isə Türkiyənin "Rəsmi Qəzet"inin 23 mart sayında dərc edilmişdir.

Mənəvi varlığımızın ayrılmaz bir hissəsi olan Şuşa üç yüz ilə yaxındır ki, Azərbaycanın şanlı tarixinə şahidlik edir. Bu tarix keşməkeşli, qanlı-qadalı, enişli-yoxuşlu bir tarix olaraq xalqımızın qəhrəmanlıq şalnaməsidir. Ötən ilin son günündə dövlət başçımızın 2022-ci ili ölkəmizdə "Şuşa İli" elan etməsi zəngin və şanlı tarixi keçmişə malik Azərbaycan xalqının qədim ənənələrinin simvolu olan bu salnamənin yeni səhifəsi olacaq.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**